# Ermənistanın Aprel avantürası

## Altı illik zaman kəsiyindən baxış



***Müsahibimiz Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirovdur.***

***– Elman müəllim, Aprel döyüşlərindən altı il keçir. Bu döyüşlərdə qazandığımız uğurlar sanki hərbçilərimizə yeni ruh, güc-qüvvət verdi və tarixi qələbəyə gedən yolun başlanğıcı oldu. Sizin də bu barədə fikirlərinizi bilmək maraqlı olardı.***

– 2016-cı ildə Ermənistan silahlı qüvvələrinin aprel avantürası onların məğlubedilməzliyi haqqında mifin bir neçə gün ərzində Azərbaycan Ordusunun əks- həmləsi ilə darmadağın edilməsinə gətirib çıxartdı. Bu qələbə Azərbaycan Ordusunun hərbi texniki - təchizatının və döyüş ruhunun ən yüksək səviyyədə olduğunu bütün dünyaya nümayiş etdirdi. Münaqişənin tənzimlənməsi prosesində Azərbaycanın hərbi üstünlüyü təmin edildi.

Dövlətimizin milli hərbi sənaye kompleksi formalaşdırılıb. Son illər ərzində ölkəmizdə 20 hərbi zavod tikilib istifadəyə verilib. Bu zavodlarda 1200 adda hərbi təyinatlı məhsullar istehsal edilir. Bu məhsullar dünyanın müxtəlif ölkələrinə, göndərilməklə yanaşı, Azərbaycanda keçirilən müdafiə sənayesi sərgilərində də təqdim olunur və müsbət reaksiyalar doğurmaqdadır.

Prezident İlham Əliyev deyib: “Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Güclənən Azərbaycan və qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgəri onlar üçün daim qorxu mənbəyidir və bu qorxunu aradan qaldırmaq üçün, sadəcə olaraq, Ermənistan beynəlxalq hüquq normalarına əməl etməlidir və işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır”. Ermənistan tərəfi bu fikirlərə uzun müddət ərzində bir təbliğat kampaniyasının tərkib hissəsi kimi yanaşırdı. Elə bu məntiqlə də aprelin 1-dən 2-nə keçən gecə növbəti hərbi avantüraya əl atdı və layiqli cavabını aldı. Ermənistanın Azərbaycanla dövlət sərhədində və qoşunların təmas xəttində törətdiyi növbəti hərbi insident Azərbaycan Ordusunun qüdrətini və sarsılmaz döyüş ruhunu, erməni ordusunun isə acizliyini və zəifliyini nümayiş etdirdi. Ən müasir hərbi texnika və silahlarla təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik ordumuzun 4 gün ərzində düşməni əks-hücumla darmadağın etməsi cənab Prezidentin yuxarıda qeyd olunan fikirlərinin tam həqiqəti əks etdirdiyini bir daha təsdiqlədi.

***– Erməni təxribatının səbəbi nə idi?***

– Ermənistan silahlı qüvvələri zaman-zaman Azərbaycan ərazilərində terror aktları, qətliamlar, təxribatlar törədiblər. Bu təxribatın səbəbləri bəllidir. Prezident İlham Əliyev aprel döyüşlərindən 4 gün sonra, 2016-cı il Aprelin 9-da Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında silahlı təxribatı şərtləndirən amillərə toxunaraq qeyd etmişdir: “Görünür ki, danışıqlarda mümkün ola biləcək müsbət dinamika Ermənistanın bu təxribata getməsini şərtləndirdi. Bir daha qeyd etmək istəyirəm, Azərbaycan öz torpaqlarını müdafiə edir, bizim başqa dövlətin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verəsi deyilik. Heç vaxt imkan verməyəcəyik ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın.”

Cənab Prezidentin qeyd etdiyi kimi, Ermənistan işğalçı dövlət kimi münaqişənin permanent olaraq davam etməsində, status-kvo vəziyyətinin qorunub saxlanmasında maraqlı idi. İşğalçı dövlət münaqişənin həllində müsbət tendensiyaların işartısını gördükdə belə, bütün qüvvələrini səfərbər edir və həmin prosesin qarşısını alırdı. Bu məqsədlə arsenalında olan bütün ənənəvi təxribat üsullarından istifadə edir, bir çox hallarda hərbi avantüraya əl atırdı.

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ilin 31 mart –1 aprel tarixlərində Vaşinqtonda keçirilən IV Beynəlxalq Nüvə Sammitində iştirakla bağlı ABŞ Prezidenti Barak Obamadan dəvət almışdı. Azərbaycan nə nüvə dövlətidir, nə də ərazisində AES vardır. Bu dəvət ölkəmizin beynəlxalq təhlükəsizliyin təminatına verdiyi mühüm töhfələrlə bağlı idi. Dövlətimizə olan böyük etimaddan qaynaqlanırdı. Səfər çərçivəsində Prezident İlham Əliyevin keçirdiyi çoxsaylı görüşlər, xüsusilə də ABŞ-ın Dövlət katibi Con Kerri və vitse-prezident Cozef Bayden ilə apardığı məhsuldar danışıqlar Ermənistanda şok effekti yaratmışdı. Düşmən ölkə Cozef Baydenin artıq tarixə çevrilmiş Ermənistan – Azərbaycan, artıq bizim üçün keçmiş olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ərazi bütövlüyü və suverenlik prinsipləri çərçivəsində həlli ilə bağlı mövqeyini süngü ilə qarşılamışdı. Burada heç bir halda Ermənistanın daim əlində bayraq etdiyi xalqların öz müqəddəratını təyinetmə hüququndan söhbət getmirdi. Onu da xüsusi olaraq qeyd edək, əslində, ABŞ vitse-prezidentinin bu mövqeyi elə Prezident Barak Obamanın mövqeyi kimi qiymətləndirilməlidir. Bir qədər də açıq desək, bu, ABŞ ali icra hakimiyyətinin mövqeyidir. Vitse-prezidentin ölkə konstitusiyasına görə, həm də Senatın rəhbəri olduğunu nəzərə alsaq, deməli, bu yanaşma, həm də ABŞ-ın ali qanunvericilik hakimiyyətinin mövqeyini anlamındadır.

Bu hadisə Ermənistanda günün günorta çağı şimşək effekti yaratdı. Rəsmi İrəvan bu vəziyyətin münaqişənin həlli prosesinə və deməli, status-kvonun dəyişməsinə gətirib çıxaracağından ehtiyatlanaraq növbəti dəfə silahlı təxribat hərəkətlərinə əl atdı. Əslində, ermənilər yalnız milli ordumuzun mövqelərinə hücum etməmiş, həm də beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozaraq mülki əhaliyə qarşı hərbi cinayətlər törətmişlər. Təmas xəttinin yaxınlığında yerləşən yaşayış məntəqələri, məcburi köçkün qəsəbələri də düşmən atəşinə məruz qalmışdı. Nəticədə, dinc sakinlər həlak olmuş, biri 13 yaşlı uşaq olmaqla mülki vətəndaşlar yaralanmış, müxtəlif yaşayış məntəqələrində infrastruktur obyektləri, hətta təhsil müəssisələri zədələnmiş, evlər dağıdılmış, əhalinin şəxsi təsərrüfatlarına və əmlakına xeyli ziyan dəymişdi.

Bu vəziyyətdə qəhrəman Azərbaycan Ordusunun əks-həmləsi artıq labüd idi. Nəticəsi isə hamıya bəllidir. Bir neçə yaşayış məntəqəsi və strateji yüksəklik üzərində milli bayrağımız dalğalanmağa başladı. Düşmən böyük itkilər vermiş, çoxsaylı hərbi texnikası məhv edilmişdi. Ordusunda mənəvi düşkünlük və fərarilik kəskin şəkildə artmış oldu. Təkcə təmas xəttində deyil, Xankəndi, Şuşa və digər Azərbaycan ərazilərində yaşayan erməni əhalisi də kütləvi köç etməyə başladı. Bu proses əvvəllər də var idi. Lakin Azərbaycan Ordusunun rəşadəti sayəsində bu proses daha sürətli xarakter aldı.

Ermənistanın son hərbi təxribatı və ona Azərbaycan Ordusunun verdiyi layiqli cavab bir sıra nəticələrə gəlməyə əsas verir. Çoxsaylı nəticələr sırasından üçünün üzərində xüsusi olaraq dayanmaq istəyirəm.

**Birinci nəticə.** Həmin dövrdə baş verən bir sıra hadisə və proseslərə real zaman rejimində istinad etməklə mövqeyimizi əsaslandıraq. Ermənistan ordusunun və qondarma “DQR silahlı qüvvələri”nin kifayət qədər güclü olması, ən müasir silahlarla təchizatı və əsgər-zabit heyətinin yüksək döyüş ruhuna malik olması ilə bağlı erməni təbliğat maşınının illərlə formalaşdırdığı mif sabun köpüyü kimi dağıdıldı. Ermənistan ordusunun keçən əsrin 80-ci illərinin silahlarından istifadə etdiyi həqiqəti bəlli oldu. Ermənistanın ovaxtkı baş naziri Ovik Obramyanın İrəvana səfər etmiş Rusiyanın Baş naziri Dmitri Medvedevə 200 milyon dollar kredit üzrə silah-sursatın verilməsinin hələ də Moskva tərəfindən yubadıldığını xatırlatması və bu məsələdə kömək göstərilməsini az qala yalvararaq xahiş etməsi yuxarıda söylənən fikirlərin düzgünlüyünü təsdiqləyir. Bundan savayı, Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan Almaniyada səfərdə olarkən 2 hadisənin onu üzdüyünü dilə gətirməkdən çəkinməmişdir. Birincisi, Azərbaycan Ordusu ən müasir silahlarla təchiz olunubdur. İkincisi, müttəfiqləri olan Rusiya Azərbaycana müasir silah-sursat satır.

Əli Xocalıda dinc, günahsız soydaşlarımızın qanına bulaşmış “Serj Sarkisyanı heç vaxt bu qədər bədbin və inamsız görməmişdik,” – fikri də erməni ekspertlərinə məxsusdur.

**İkinci nəticə.** Beynəlxalq birliyin subyektlərinin mütləq əksəriyyəti, o cümlədən böyük dövlətlər və beynəlxalq təşkilatlar, əsasən, Azərbaycanın haqq işini müdafiə etdilər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “bütün həmsədr ölkələr – ABŞ, Rusiya, Fransa Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Dünyada Ermənistandan başqa elə bir ölkə yoxdur ki, bizim ərazi bütövlüyümüzü dəstəkləməsin...Qanlı toqquşmalardan sonra beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı narahatlığını ifadə etdi. Həmsədr ölkələrin rəhbərliyi sülh danışıqlarına sadiqlik göstərilməsi, məsələnin sülh yolu ilə həlli haqqında bəyanatlar verdilər və biz də bunu istəyirik”. Hətta, iş o yerə çatdı ki, Ermənistanın xarici işlər nazirliyi beynəlxalq qınaq obyektinə çevriləcəyi perspektivindən ehtiyatlanaraq, bu istiqamətdə yaranmış vəziyyətin geniş təhlilə ehtiyacı olduğunu vurğuladı və məlum istiqamətdə fəaliyyətin yenidən qurulmasının vacibliyini qeyd etdi. Xüsusilə, Ermənistanın hər zaman istinad edərək Azərbaycanı hədələdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının ayrı-ayrı üzvlərinin davranışı rəsmi İrəvanın "yuxusuna haram qatdı”. Qazaxıstan və Belarus dövlətlərinin Azərbaycanın mövqeyini birmənalı olaraq müdafiə etməsini böyük məmnunluq hissi ilə qeyd edirik. Türkiyə hər zaman olduğu kimi, bu dəfə də Azərbaycanın yanında oldu. Dövlətlərimizin qardaş, dost, strateji müttəfiq olması həqiqəti növbəti dəfə tarixin sınağından çıxdı. Ermənistan mətbuatı və ziyalıları isə ölkələrinin təkləndiyini, müttəfiqsiz qaldığını acı etiraf edərək səsləndirməkdə davam edirdilər. Rusiyanın qaz satışında həmin dövrdə Ermənistana etdiyi cüzi güzəşti isə əslində, Kremlin Sarkisyan rejiminə verdiyi “dəyər”in miqyasının göstəricisi kimi də qiymətləndirilə bilər.

**Üçüncü nəticə.** 1994-cü ildən bəri davam edən nisbi atəşkəs dövründə ilk dəfə olaraq Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbə endirə bilməsi bir sıra amillərlə bağlıdır. Xüsusi olaraq qeyd edək ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğuna prioritet sahə kimi yanaşması və bu istiqamətdə göstərdiyi misilsiz fəaliyyət Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilmişdir. Azərbaycanın hərbi arsenalı ən müasir silahlarla təmin edilmişdir. Ölkə büdcəsində hərbi xərclər birinci sıradadır. Ordumuzun hərbi-vətənpərvərlik ruhu özünün pik nöqtəsindədir. Bütün qoşun növləri arasında unikal koordinasiya mövcuddur. Ən başlıcası isə, hakimiyyətlə xalq arasında monolit birlik vardır. Xalq Prezidentini sevir, Prezident isə xalqın mənafeyini hər şeydən üstün tutur. Məhz bu reallıq ölkəmizdə siyasi sabitliyin formalaşmasını təmin edən başlıca amilə çevrilmişdir. Bütün bunlar Ermənistanda yoxdur. Ermənistan iqtidarının sosial bazası çoxdan tükənmişdi. Sarkisyan rejiminə erməni xalqı nifrət edir və öz övladlarını bu rejimin müdafiəsi naminə müharibəyə göndərmək istəmirdi. Elə bu səbəbdən də Ermənistanda yeni müxalifət düşərgəsi –“Əsgər anaları hərəkatı” formalaşmışdı. Ermənistan ordusunun “Aprel itkiləri” fonunda bu hərəkatın sıraları ədədi deyil, həndəsi silsilə ilə artmış oldu.

***– Şübhəsiz, bu reallıqlar işğalçı Ermənistan üçün dərs oldu.***

– Təbii ki, Ermənistan bütün bunlardan ibrət götürməli, işğalçılıq siyasətini dayandırmalı idi. Unutmamalı idi ki, onu gələcəkdə hərbi cəbhədə daha biabırçı məğlubiyyət gözləyir. Elə də oldu. Ali Baş Komandan İlham Əliyevin təcavüzkar Ermənistan dövlətinə qarşı tətbiq etdiyi dərinləşməkdə olan iqtisadi və nəqliyyat blokadası siyasəti, başqa sözlə, təcavüzkar ölkəyə münasibətdə istifadə olunan “taqətdənsalma taktikası” öz real nəticələrini verdi. Ən mühüm nəticələrdən biri, bəlkə də, birincisi Ermənistanda inqilabın baş verməsi və 20 ildir ki, bu ölkədə bərqərar olmuş xunta rejiminə son qoyulmasıdır. İnqilabi proseslərin dalğasında hakimiyyətə gəlmiş Nikol Paşinyan hökuməti münaqişənin tənzimlənməsi istiqamətində sələflərinin buraxdığı kobud səhvlərdən nəticə çıxarmalı və konstruktiv davranış tərzi nümayiş etdirməli idi.

Təəssüf ki, Nikol Paşinyanın münaqişənin həlli ilə bağlı davranışı onun yaxın tarixi keçmişdən müvafiq nəticələr çıxarmadığını təsdiqlədi. O, öz sələfləri kimi daxili auditoriyaya ünvanlanmış populist, məsuliyyətsiz, ziddiyyətli və bir çox hallarda avantürist bəyanatlar verməkdə davam etdi. Xüsusilə, Nikol Paşinyanın 2019-cu ilin 5 avqust tarixində işğal altındakı Azərbaycan ərazisində –Xankəndidə dar əhatədə səsləndirdiyi “Dağlıq Qarabağ Ermənistandır. Nöqtə” – sərsəm fikri işğalçı ölkənin özündə belə qeyri-ciddi və populist mövqe kimi qarşılandı. Bu reallıqda Prezident İlham Əliyevin mövqeyi son dərəcə prinsipiallığı və qətiyyəti ilə seçilirdi. Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasında çıxış edən Prezident İlham Əliyev münaqişənin tarixi, Ermənistanın işğalçılıq siyasətinin humanitar fəlakət törətməsi, beynəlxalq hüququn işləməməsi, BMT TŞ-nın müvafiq qətnamələrinin lazımsız kağız səviyyəsinə enməsi, təcavüzkar dövlətin yeni rəhbərliyinin populist və məsuliyyətsiz bəyanatlar səsləndirməsi kimi həqiqətləri məqamında və yerində dünya ictimaiyyətinə çatdırdı. Çıxışının sonunda isə Paşinyanın dar çərçivədə söylədiyi və daxili auditoriyaya ünvanlanmış “Dağlıq Qarabağ Ermənistandır. Nöqtə” sayıqlamasına qarşı “ Qarabağ Azərbaycandır. Nida işarəsi !” qətiyyətini irəli sürdü.

2020-ci il noyabr ayının 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə, noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyanın imzaladıqları Üçtərəfli Bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiya aktı oldu. Noyabr ayının 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu bir güllə belə atılmadan, bir nəfər şəhid belə vermədən işğaldan azad olundu.

Bu tarixi Zəfərlə Prezident İlham Əliyev öz adını müzəffər sərkərdə kimi təkcə mənsub olduğu ölkənin deyil, əslində, dünyanın hərb tarixinə həkk etdirdi. Bu tarixi qalibiyyətin nəticəsində ordumuzun yenilməzliyi, qüdrəti və vətənpərvərliyi sözdə deyil, qanlı döyüş meydanlarında sübuta yetirildi. Xalq olaraq qəddimiz düz, başımızı uca oldu. Qürurumuz özümüzə qaytarıldı. Alnımızdan xəcalət təri birdəfəlik silindi. Birləşdik, bütövləşdik. Ən qatı əleyhdarlarımız belə bu həqiqəti etiraf etmək məcburiyyətində qaldılar.

Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Prezidentin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları yaradıldı.

Böyük fəxr və qürur hissi ilə onu da qeyd edək ki, Prezident, Ali Baş Komandan İlham Əliyev 2021-ci ilin 12 noyabr tarixində Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının (Türk Şurası) İstanbulda keçirilən VIII Zirvə görüşündə Türk Dünyasının Ali Ordeni ilə təltif olundu. Bu təşəbbüsün müəllifi qardaş Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan olmuşdur və ali mükafatı da o təqdim etmişdir.

Həqiqətən də müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi sayəsində əldə olunan qələbə öz miqyası və əhəmiyyəti baxımından bölgəmizin sərhədlərini aşır,türk dünyası kimi daha geniş coğrafi arealı əhatə edir. Cənab Rəcəb Tayyib Ərdoğanın Ali Ordenin təqdimat mərasimində səsləndirdiyi fikirlər bu baxımdan böyük məna kəsb edir : “Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan “Xarıbülbül” türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur.”

***– Aprel döyüşlərində əsası qoyulan tarixi Qələbəmiz regionda yeni reallıqlar yaratdı...***

– Şanlı Qələbənin əldə edilməsi ilə bölgədə davamlı sülh, sabitlik və təhlükəsizlik mühitinin formalaşması üçün geniş imkanlar yaranıb. Prezident İlham Əliyev postmüharibə dövrünün problemlərini həll etmək üçün Ermənistan siyasi rəhbərliyi ilə danışıqlar aparmağa hazır olduğunu bəyan edib. Danışıqlarda, ilk növbədə, iki dövlət arasında sərhədlərin delimitasiya və demarkasiyasının müəyyən edilməsi, iqtisadi-nəqliyyat kommunikasiyalarının bərpası, o cümlədən, Zəngəzur dəhlizinin işə salınması, minalanmış ərazilərin dəqiq xəritələrinin Azərbaycana təhvil verilməsi və ümumən tarixi sülh müqaviləsinin imzalanması üçün münbit şəraitin yaradılması ətrafında məsələlərin müzakirə edilməsi mümkün variant olaraq nəzərdə tutulur. Taleyüklü razılaşmaların əldə edilməsi sülh müqaviləsinin imzalanması ilə nəticələnə bilər. Bu isə, öz növbəsində, bölgədə davamlı sülh, sabitlik və əməkdaşlıq mühitini formalaşdırar.

Hər zaman olduğu kimi, qeyd edilən mürəkkəb məsələlərin həllində də milli birliyimizin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi tarixi zərurətə çevrilmişdir. Bu dəmir məntiqdən çıxış edərək, son 19 il ərzində ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin və xüsusilə də pozulmuş ərazi bütövlüyümüzün bərpası naminə mübarizənin təşəbbüskarı və təminatçısı olan Prezident İlham Əliyev ətrafında daha sıx və monolit birlik nümayiş etdirməliyik. Bu, zamanın çağırışıdır!

***Müsahibəni qələmə aldı: Əliqismət BƏDƏLOV, “Xalq qəzeti”***